# Milli humanitariyanın strateji istiqamətləri və ədəbiyyatın dövrləşdirilməsinin yeni konsepsiyası

*(Əvvəli ötən sayımızda)*

Akademik İsa Həbibbəyli ədəbi prosesin öyrənilməsində və şərhində tarixi gerçəkliyi bir faktor olaraq nəzərə almağın zəruriliyini göstərir. Alimə görə, ədəbi-tarixi proses "ədəbiyyatın təbii məntiqindən, daxili təkamülündən doğan sənət idealları ilə xalqın müxtəlif dövrlərdəki ümummilli ideallarının dialektik əlaqəsinə əsaslanır". Bu, yeni konsepsiyada xalqla, onun tarixi ilə ədəbiyyatını birlikdə öyrənməyi və şərh etməyi təklif edən önəmli bir müddəadır.

4.Azərbaycanda ədəbi cərəyanlar. Təqdim edilən konsepsiyada ədəbiyyat tarixində ədəbi cərəyanların rolu qiymətləndirilir və ədəbiyyatın xarakterini müəyyənləşdirən faktorlardan biri kimi götürülür. Şübhəsiz ki, Azərbaycan ədəbiyyatı özünün qədim və zəngin inkişaf tarixi boyunca mövcud olmuş cərəyanlardan təsirlənmişdir. Belə cərəyanların qlobal və ya regional olmasından asılı olmayaraq, Azərbaycan ədəbiyyatı içində və əhatəsində olduğu fikir, dünyagörüş, fəlsəfə və inanc axınlarından təsirlənmiş və bu ruhda mükəmməl nümunələr təqdim etmişdir. Dini əsərlərdə də, təsəvvüfdə də, renesansda və realizmdə də, milli ruhu yüksəldən romantizmdə və digər cərəyanlarda da Azərbaycan ədəbiyyatı dünyanın qabaqcıl fikir axınları ilə birlikdə çıxış edib. Yeni konsepsiya ədəbiyyata özünün inkişaf tarixi boyunca daha çox ideya və məzmun baxımından təsir göstərən ədəbi cərəyanlarla əlaqədə öyrənməyin və dövrləşdirməyin ən doğru yolunu göstərmiş olur. Beləliklə, yeni konsepsiya ədəbiyyat tarixini aşağıdakı mərhələlər üzrə dövrləşdirməyi təklif edir:

1. Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər) ;
2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü ( VII-X əsrlər) ;
3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər) ;
4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər) ;
5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII ərslər) ;
6. Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü (XIX əsr) ;
7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası ( XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyətinədək) ;
8. Azərbaycan ədəbiyyatında sosialist realizmi dövrü (1920-1960-cı illər);
9. Milli-mənəvi özünüdərk və istiqlal mərhələsi. Modernizm (1960-1980-ci illər);
10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən).

Özünəqədərki dövrləşdirmə təcrübəsini qədirşünaslıqla nəzərə alan İsa Həbibbəylinin bu bölgüsündə kifayət qədər fərqli yanaşma məqamı vardır. Mövcud ədəbiyyat tarixi təcrübəsində tarixşünaslıq baxımından da qədim dövr özünün tam dolğun ifadəsini tapmamışdı. Ədəbiyyat tarixinin qədim dövrü pərakəndə şəkildə və sistemsiz bir vəziyyətdə təqdim olunurdu.

Ədəbiyyat tarixçiliyində ilk dəfə olaraq ədəbiyyatın yaranmasında və formalaşmasında xalq yaradıcılığının, o cümlədən eposun rolu milli bədii təfəkkürün ədəbi ifadəsi kimi diqqətlə öyrənilib və dövrləşdirmə sistemində öz yerində yerləşdirilib. "Qədim dövr Azərbaycan ədəbiyyatı. Etnosdan eposadək (ən qədim dövrlərdən VII əsrə qədər)" şəklində təsnifat sistemində yer tutan eposaqədərki böyük bir dövr eposun yaranması ilə xarakterizə olunur. Akademik İsa Həbibbəyli eposun səciyyəsi haqqında mülahizələrini epos mədəniyyətimizin ən mükəmməl nümunəsi olan "Kitabi-Dədə Qorqud"la bağlı söylədiyi fikirlərində aydın şəkildə ifadə edir: "Dastanlarda, adətən, mənsub olduğu xalqın böyük idealları öz əksini tapır. "Kitabi-Dədə Qorqud" dastanlarında da mənsub olduğu xalqın böyük idealları əks olunmuşdur. Amma "Kitabi-Dədə Qorqud"-dakı bu böyük ideallar Türk dünyasının idealları, Azərbaycan xalqının böyük idealları olmaqla yanaşı, həm də ümumbəşəri ideallardır. Burada ədalət, müdriklik, qəhrəmanlıq, barış, ölümdən qorxmamaq, əbədiyyət, yurd və torpaq sevgisi, yüksək insanlıq dəyərləri kimi mətləblər öz əksini tapmışdır ki, bunlar da Azərbaycan coğrafiyası insanları üçün dəyərli, Türk dünyası və ümumən dünya üçün əhəmiyyətli olan çağırışlardır. Düşünürəm ki, Dədə Qorqudun ədalət, barış, müdriklik, insanpərvərlik çağırışları nəinki bu gün üçün, bundan sonrakı zamanlar üçün də son dərəcə aktualdır". Eposun səciyyəsini müəyyənləşdirmək üçün burada ifadə olunan mülahizə əsas götürülə bilər. Çünki eposun milli bədii məlumat daşıyıcısı olaraq əsas səciyyəsi xalqın ideallarını, onun özünəməxsus düşüncə və davranışlarını, mənəvi dəyərlərini təcəssüm etdirməsidir. Folklorun bir sıra janrları bu xüsusiyyətləri özündə əks etdirir. Bunların içərisində dastan, nağıl, atalar sözü kimi janrlar aparıcı mövqeyi ilə fərqlənir. Bu mənada dastan eposun əsas vahidlərindən biridir və epik məlumatın ən geniş şəkildə əks olunduğu bədii mətn nümunəsidir. Ozan boyları, rəvi hekayətləri, aşıq və baxşı dastanları xalqın ənənəvi görüşlərini, əski təsəvvürlər sisteminidə mifin strukturunu, cəmiyyətin təbiətdən mədəniyyətə qədər keçdiyi tarixi inkişafın dialektikasını, epoxal dəyərlərini, sivilizasiyaların sintezini özündə əks etdirməklə eposun əsas hissəsini təşkil edir.

Zəngin epos mədəniyyətinin içərisində daşıdığı əski sav, aytı, soylama, boylama, oğuznamə kimi xalq yaradıcılığının bədii nümunələri orta əsrlərin ortalarında şeirə türk ətri gətirir, artıq könül ehtiyaclarını gözəl oğuz şeirləri ödəməyə başlayır. El yaradıcılığı saray ədəbiyyatına təkan verir, qəzəl, qəsidə və rübai formasında olan ərəb və fars mənşəli janrlarda anadilli poeziya yaranır, mədhiyyələrin türkcəsi də geniş inkişaf tapır. Səlcuqlu sultanı Məlik şahın xanımı Türkan xatuna mədhiyyə yazan şair müraciətlə "mənim savımı ona çatdır, sadiq xidmətçiniz yeni xidmətlər göstərmək üçün tapşırıqlarınızı gözləyir"-deyir. Anadilli qəzəlin ilk nümunələrindən biri olan İzzədin Həsənoğlunun "könül aparan bir xoş qəmər üz canfəza dilbər-"ində də müəllif mütəvazi bir şəkildə sadiq xidmətçi kimi özünü qeyd edir. Bu artıq ədəbiyyatın mənəvi tələbat və bu sferada xidmət sahəsi kimi funksional imkanlarının formalaşdığını göstərməkdədir.

Xalq yaradıcılığının önəmli bir sahəsi olan eposun bədii söz sənətinin yaranmasındakı rolunun əhəmiyyəti qeyd olunmaqla yanaşı cəmiyyətin həyatında folklorun müstəqil ictimai-mədəni institut kimi fəaliyyəti də diqqətdə saxlanmalıdır. Folklor xalq inancları ilə dini görüşlərə, oyunla idmana və xalq mərasimlərinə, meydan tamaşaları ilə teatr sənətinə, xalq təbabəti ilə tibbə, xalq musiqisi ilə musiqi sənətinə, ənənəvi adətlərlə etnoqrafiyaya, şifahi bədii söz yaradıcılığı ilə ədəbiyyata ilkin qaynaqlarını formalaşdırmaq üçün material verir.

Folklorda deyilən, danışılan, söylənən sözlərlə yanaşı oynanılan, göstərilən, icra edilən nümunələr də əsas funksional istiqamətləri təşkil edir. Folklor qaynaq rolunu oynadığı mədəniyyət və yaradıcılıq sahələrinin ayrılıda heç biri deyil, bir bütövdür və müstəqil ənənəvi mədəni fenomendir. Xüsusi mülkiyyətin və dövlətin yaranması ilə fərdi intellektual yaradıcılıq sahəsi olan ədəbiyyat şifahi ənənəvi mədəniyyətdən qaynaqlanaraq yazılı ədəbi ənənə şəklində formalaşma və inkişaf yolu keçib.



Konsepsiyada etnosdan eposa qədərki dövr ilkin poetik strukturların yaranması və formalaşmasının başlanğıc mərhələsi kimi səciyyəvi cəhətləri ilə təqdim edilir. Dövrləşdirmə sistemi eposun milli bədii düşüncə tarixindəki yerini müəyyənləşdirmək üçün prinsiplər verir, folklorun müstəqil ənənəvi mədəniyyət institutu kimi qorunmasının və yaşadılmalmasının vacibliyini nəzəri əsaslarla aydınlaşdırır.

"Kitabi-Dədə Qorqud"u əsas götürməklə ədəbi dilin tarixini VII əsrdən başlamaq üçün Qorqud Atanın rəsuləleyhüssəlamın zamanına yaxın boyat boyundan çıxması fikri hər nə qədər özündə izomorf bir zaman anlayışı ifadə etsə də, abidənin epoxal mədəniyyət və sivilizasiya dəyərləri baxımından İslamla Tanrıçılığın qovuşma məqamını əks etdirməsi ilə bu tarix daha ciddi fakt və zəngin kulturoloji materialla təsdiqlənmiş olur. Yeni konsepsiya eposu özünün tarixi-mənəvi haqqına uyğun olaraq öz yerində və öz zamanında yerləşdirir.

Mövcud dövrləşdirmə təcrübəsində əsas problemlərdən biri qədim dövrlə bağlı olmuşdur. Bunun ideoloji məhdudiyyətlərdən irəli gələn "üzrlü səbəbləri" ilə yanaşı, prinsip yetərsizliyindən doğan aspektləri də vardı. VI-VIII əsrlər qədim türk yazılı abidələrini ədəbiyyat tarixinə daxil etmək üçün artıq "siyasi ehtiyatlılığa" ehtiyac qalmır. Çünki bizim böyük bir türk milləti olaraq dövləti, ordusu, daş üzərində qazılaraq yazılmış yazısı olan ən dəyərli abidəmiz budur. Böyük türk manifestinin vəsiyyətnaməsində bizim "toquz oğuz" adı ilə vərəsəlik haqqımız abidənin daş yaddaşına h abidənin varisiyik. Akademik İsa Həbibbəylinin təqdim etdiyi dövrləşdirmə konsepsiyası bizim ədəbiyyat tarximizin vərəsəlik haqqını özünə qaytarmış olur.

Qədim dövrün abidələrindən "Avesta" ya münasibət də birmənalı olmayıb. Bu abidənin də ədəbiyyat tarixindəki mövqeyinin aydınlaşdırılmasına ehtiyac var idi. "Avesta" qədim dövr Azərbaycanın tarixi coğrafiyasında mövcud olan ədəbi abidə kimi tam əsaslandırılmamışdı. Hələ də bəzi ədəbiyyatşünaslar bu abidənin ədəbiyyat tarixində iştirakına skeptik yanaşırdılar. İndi əlimizdə olan yeni konsepsiyanın ədəbi varislik prinsipi tarixi coğrafiyamızın çərçivəsindəki torpağın üzərində mövcud olan ədəbi abidələri, o cümlədən "Avesta" qatlarını da mədəniyyət tariximizin çoxqatlı binasının sakini kimi qarşılayır.

VII-X əsrlər xilafətin mədəni mərkəzlərində fəaliyyət göstərən ədəbi şəxsiyyətlər içərisində "əl Azərbaycanı" nisbəsi ilə şeirlərini yazan şairlərin də özlərinin təqdimatına hörmətlə yanaşaraq Azərbaycan ədəbiyyatı tarixinə daxil edilmələri tamamilə ədalətli bir elmi həll yoludur. Beləliklə, bizim qədim yazılı ədəbiyyatımız qədim türk dilində olan ədəbiyyat, ərəbdilli Azərbaycan ədəbiyyatı və tarixi Azərbaycan ərazisindəki ədəbi abidələr və bədii nümunələrlə başlanır.

Ədəbiyyat tariximizin intibah dövrü kimi təsnifini nəzərdə tutan yeni dövrləşdirmə sistemində türkdilli və farsdilli olmaqla milli bədii təfəkkür mükəmməl ədəbi nümunələrlə ənənəni zənginləşdirir. Ədəbiyyat tarixindəki türkdilli yüksəliş Yusif Xas Xacibin "Qutadqu biliq", Mahmud Kaşqarlının "Divani-lüğətti-türk" kimi möhtəşəm əsərləri ilə intibahın zəminini hazırlayır. Səlcuqlar dövrü ortaq oğuz ədəbiyyatının yüksəlişi ilə oğuz ordusunun Azərbaycanı təhlükədən, Anadolunu Bizans zülmündən xilas etməsi eyni dövrə düşür. "Atabətül haqayiq", "Divani-hikmət" kimi ortaq türk ədəbiyyatı nümunələri ilə yanaşı, islam dövrünün dəyərlərini daşıyan Azərbaycan ədəbiyyatının Xaqani, Nizami, Məhsəti kimi nümayəndələri intibah ədəbiyyatını ədəbiyyat tariximizə daxil edir. Bu dövrün ədəbiyyatı özünün bütün ədəbi-bədii xüsusiyyətləri ilə birlikdə və ədəbiyyatın özünün təbiətindən çıxış edilməklə öz tarixi indeksinə, bədii çəkisinə uyğun olaraq yeni konsepsiya əsasında özünün ədəbi dövrləşdirmə sistemindəki yerini tutur.

Tarixi dövrləşdirmə sistemindəki "Orta əsrlər Azərbaycan ədəbiyyatı" (XIII-XVI əsrlər) tarixşünaslıq baxımından orta əsrlərin sonlarına düşsə də çoxəsrlik ədəbiyyat tariximizin orta dövrünü ehtiva edir. Bu dövrdə ədəbiyyatımızda anadilli bədii nümunələrin çəkisi çoxalır, sayı və sambalı artır.

Ədəbiyyat tariximizə yanaşmada ədəbiyyatımızın anadilli ədəbi nümunələrlə başlanması təşəbbüsləri də olub. Firidun bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, İsmayıl Hikmət və Fuad Köprülünün vaxtilə ədəbiyyat tarixini anadilli poeziyadan (Məhəmməd Füzulidən, İmadəddin Nəsimidən, İzəddin Həsənoğlu və ya Qazi Bürhanəddindən) başlaması haqqında görüşləri məlumdur. Şübhəsiz ki, ədəbiyyat tariximizi belə bəsit yanaşma və məhdud prinsiplərlə dövrləşdirə bilmərik. Bu baxımdan yeni konsepsiya bizə bu problemlərin həlli üçün elmi əsaslar təqdim edir. Həm ədəbiyyatımızın qaynaqları və kökləri öz yerində götürülür, həm də anadilli ədəbiyyat bu ədəbi ənənənin və bədii yaradıcılıq fasiləsizliyinin üzvi bir hissəi olur.

*(Davamı var)*

Xəlil, Ağaverdi

***filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu Mərasim Folkloru şöbəsinin müdiri***